**Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində Çin Xalq Respublikasında (ÇXR) təhsilə dair Mütəmadi Verilən Suallar**

1. **Çində təhsilə müraciət etmək üçün lazım olan sənədlərin siyahısını haradan əldə edə bilərəm?**
   - Sənədlərin siyahısını https://htp.edu.az/az/index internet səhifəsində ÇXR-də təhsillə bağlı yerləşdirilmiş elandan əldə edə bilərsiniz.

2. **Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində ÇXR-da təhsil hansı dildədir?**
   - Çin ali məktəbləri tədris dili kimi çin dilinə üstünlük verir. Lakin müəyyən ÇXR ali məktəblərində tədris dili ingilis dilində olan proqramlar da mövcuddur. Lakin bakalavriat səviyyəsi üzrə təhsil yalnız Çin dilində aparılır.

3. **Çin dili bilməyən tələbə çin dilində ÇXR ali məktəblərində təhsil ala bilər?**
   - Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində ÇXR ali məktəblərinə qəbul olunan tələbələr oxuduğu ixtisasdan asılı olaraq, 1 və ya 2 il müddətində çin dili üzrə hazırlıq kursu keçirlər. Hazırlıq kursu müddəti bitdikdən sonra tələb olunan dil səviyyəsinə malik olmayan tələbələr təhsil almaq imkanından məhrum olurlar.

4. **ÇXR ali məktəblərində çin dilində təhsil almaq üçün hər hansı dil sertifikatı tələb olunur?**
   - Çin dilində təhsil almaq üçün müraciət edən namizədlər müvafiq dil biliyini sübut edən sertifikat (HSK) təqdim etməlidir. Çin dili üzrə hazırlıqda təhsil alacağı təqdirdə, bakalavriat təhsil səviyyəsi üzrə çin dili səviyyəsi imtahanı üzrə (HSK3) 3-cü dərəcəyə, magistratura və doktorantura təhsil səviyyələri üzrə isə çin dili səviyyəsi imtahanı üzrə (HSK4) 4-cü dərəcəyə malik olmalıdırlar. Həmçinin ingilis dili üzrə orta səviyyədə (IELTS 6.0, buna ekvivalent TOEFL nəticəsi) dil biliyinə sahib olunmalıdır.
   Əlavə olaraq, namizəd bakalavriat və ya magistratura təhsil səviyyəsində son 3 (üç) il ərzində aldığı kvalifikasiyanın tədris olunduğu dildə təhsil üçün müraciət edərsə, həmin tədris dili müvafiq kvalifikasiyanı verən dövlətin rəsmi dövlət dili ilə eynidirsə, bu halda namizəddən dil sertifikatı tələb olunmur və namizəd təqaüd proqramına əvvəlki təhsilinin müvafiq dildə olması barədə arayışla müraciət edə bilir. Lakin müvafiq arayış yalnız müraciət etdiyi universitet bu sənədi qəbul etdiyi təqdirdə keçərlidir.

5. **Müraciət oluna biləcək ÇXR universitetlərinin siyahısı ilə hansı ünvandan tanış olmaq olar?**
   - İştirak edən universitetlər barədə məlumatı https://campuschina.org/universities/index.html saytından əldə edə bilərsiniz.

6. **Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində ÇXR ali məktəblərinə qəbul necə həyata keçirilir?**

- İlk növbədə ÇXR ali məktəblərinə qəbul üçün müraciət olunan təhsil səviyyəsi üzrə tələb olunan bütün sənədlər müvafiq qaydada göstərilən tarixə qədər Elm və Təhsil Nazirliyinin elektron ərizə sisteminə (portal.edu.az) yüklənir;
- Müsabiqə zamanı tələb olunan bütün sənədlərin nüsxəsini (müraciət olunan təhsil səviyyəsi üzrə) müvafiq qaydada təqdim etdiyiniz və Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən müsahibədə uğur qazandığınız təqdirdə sizin namizədliyiniz Çin tərəfinə göndərilir;
- Yekun nəticənin isə Çin Xalq Respublikasının Azərbaycandakı Səfirliyi tərəfindən növbəti ilin iyul ayı ərzində təqdim olunması gözlənilir.

7. **ÇXR-ın "Elektron ərizə forması" nə zaman doldurulur?**

- Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən müsahibədə uğur qazandıqdan sonra namizədlər ETN tərəfindən təqdim ediləcək xüsusi koddan istifadə etməklə "Elektron Ərizə Formasını" doldururlar.

8. **"Elektron Ərizə Forması"nda neçə universitet seçimi etmək mümkündür və yerləşdirmə necə aparılır?**

- Namizədlərə ÇXR Təqaüd Proqramında iştirak edən universitetlərdən 3-nü seçmək imkanı verilir. Universitetə yerləşdirmə ÇXR tərəfindən aparılır və "Elektron Ərizə Forması"nda təhsil almaq üçün seçilən 3 universitetdən birində yerləşdirilir.

  **Qeyd:** Namizədlərin ÇXR Təqaüd Proqramı çərçivəsində iştirak edən (namizədin seçim etmədiyi) digər bir universitetə də yerləşdirilməsi mümkündür.

9. **Müraciət üçün tələb olunan sənədlərdən bəzilərinin ingilis dilində və notariat qaydada təsdiqi istənilir. Sənədlərin (diplom və əlavəsi, hərbi bilet) əslini olduğu kimi skan edib göndərməyim, tərcümə və təsdiqli formasını isə müsahibəyə gələrkən özümlə gətirməyim mümkündür?**

- Xeyr, bu mümkün deyil. Sənədlərin müvafiq qaydada göndərilməsi vacibdir. Sənədləri natamam olan və ya tələb olunan formada göndərilməyən ərizəçinin müraciəti barədə rəyin verilməsi mümkün olmayacaq və bu haqda məlumat verilməyəcəkdir.

10. **Müraciət edərkən DİM (TQDK) balımı təsdiqləyən arayışa ehtiyac var?**

- Xeyr, DİM balınızı sistemdə yazmağınız kifayətdir.

11. **Təqdim etməli olduğum sənədlər arasında qeyd olunan tövsiyə məktubu necə olmalıdır?**

    Namizədlər tövsiyə məktublarını istəkləri üzrə iş yerlərindən və (və yaxud) təhsil aldıqları/məzun olduqları təhsil müəssisələrindən ala bilərlər. Məktublar imza və möhürlü təqdim olunmalıdır.

12. **Tədqiqat işinin planı dedikdə nə nəzərdə tutulur?**
    - Bakalavriat səviyyəsi üçün müraciət edənlər - təhsil alacağınız ixtisasla bağlı məqsəd və gözləntiləriniz haqqında minimum 500 sözdən ibarət qısa xülasə;
    - Magistratura və doktorantura səviyyələri üçün müraciət edənlər - təhsil alacağınız ixtisasla bağlı tədqiq edəcəyiniz mövzu və məqsəd və gözləntiləriniz barədə minimum 800 sözdən ibarət qısa xülasə.

13. **ÇXR ali məktəblərində dil hazırlığı kursu istisna olmaqla, təhsil səviyyələri üzrə təhsil müddəti necə müəyyən edilir?**
    - Bakalavriat səviyyəsi üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 4-6 il arasında dəyişir.
    - Magistratura səviyyəsi üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 2-4 il arasında dəyişir.
    - Doktorantura səviyyəsi üzrə təhsil müddəti ixtisasdan asılı olaraq 3-4 il arasında dəyişir.

14. **Hal-hazırda 4-cü kurs tələbəsi olduğum üçün diplom təqdim edə bilməyəcəyəm. Hansı sənədlər əsasında müraciət edə bilərəm?**

- Hazırda təhsil aldığınız ali məktəb tərəfindən verilmiş **təhsil aldığınıza dair arayış** (qəbul olunduğunuz və məzun olacağınız tarix göstərilməklə) **və transkripti (fənlər üzrə akademik göstəricilər)** təqdim etməklə müsabiqədə iştirak edə bilərsiniz (ingilis dilində).

15. **Hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi bilet təqdim etməliyəm?**

- Eyni təhsil səviyyəsi üzrə ikinci dəfə təhsil almaq istəyən namizədlər hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi biletin notariat qaydada təsdiq olunmuş surətini təqdim etməlidirlər.

16. **Çin ali məktəblərində təhsil almaq məqsədilə Elm və Təhsil Nazirliyinə dəvət olunan namizədlərlə müsahibə hansı dildə aparılır?**

- Əgər müraciət edən şəxs ingilis dilində tədris olunan proqrama müraciət edibsə, ingilis, digər hallarda müsahibə Azərbaycan və ya çin dilində aparılır.

17. **Müraciət etdiyim təhsil səviyyəsindən bir öncəki təhsilimi (bakalavriat və ya magistratura) tam ingilis dilində almışam. Bu halda IELTS və ya TOEFL dil sertifikatı təqdim etməliyəm?**

- Namizəd bakalavriat və ya magistratura təhsil səviyyəsində son 3 (üç) il ərzində aldığı kvalifikasiyanın tədris olunduğu dildə təhsil üçün müraciət edərsə, həmin tədris dili (ingilis dili) müvafiq kvalifikasiyanı verən dövlətin rəsmi dövlət dili ilə eynidirsə, bu halda namizəddən dil sertifikatı tələb olunmur və namizəd təqaüd proqramına əvvəlki təhsilinin tam ingilis dilində olması barədə arayışla müraciət

edə bilir. Lakin müvafiq arayış yalnız müraciət etdiyi universitet bu sənədi qəbul etdiyi təqdirdə keçərlidir.

**18. Mənim SAT nəticəm var, Çin təqaüd proqramına müraciət edə bilərəm?**

- Bəli. DİM (əvvəlki TQDK) imtahanlarında iştirak etməyən gənclərin akademik göstəricilərini sübut edən beynəlxalq səviyyədə tanınan imtahan və ya beynəlxalq olimpiada nəticələri (SAT, qızıl/gümüş/bürünc medal sahibi və s.) həmin sahə üzrə mümkün olan ən yüksək göstəricinin 70%-indən (Məsələn, SAT üçün min 1100 bal) az olmamalıdır.

**Qeyd:** Bakalavriat təhsil səviyyəsinə müraciət edən iddiaçılar Beynəlxalq təhsil proqramları üzrə (IB, A level, AP) təhsil alıblarsa və aşağıda müəyyən olunmuş keçid ballarının minimum və maksimum hədləri aralığında göstəricilərini təsdiq edən arayışın surətini təqdim edə bilirlərsə, bu halda bu namizədlərdən DİM qəbul imtahanın nəticəsi və SAT balı tələb olunmur:

- *Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme) – 25-35;*
- *Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education) – C və ya B (müvafiq üç imtahan fənni üzrə);*
- *Yüksək yerləşdirmə (Advanced Placement) – 3 və ya 4 (müvafiq üç imtahan fənni üzrə).*

**19. Mən hazırda bakalavriat səviyyəsi üzrə 3-cü kurs tələbəsiyəm. Eyni səviyyə üzrə təhsilimi Çində davam etdirə bilərəm?**

- Xeyr. Ölkənin yerli ali təhsil müəssisələrində bakalavriat, magistratura və ya doktorantura səviyyəsində təhsil alan və eyni təhsil səviyyəsi üzrə təhsil almaq istəyən şəxs təhsilinin 50%-dən çoxunu tamamlamamış olmalıdırlar.

**20. Mən bakalavriat təhsilimi İqtisadiyyat/Mühəndislik/İnformasiya texnologiyaları və s. ixtisası üzrə almışam. Magistratura təhsil səviyyəsi üzrə hansı ixtisasa müraciət edə bilərəm?**

- Bakalavriatdan sonrakı təhsil səviyyələrinə müraciət edən iddiaçıların ali təhsil haqqında diplom üzrə ixtisası xaricdə oxumaq üçün seçdiyi hər 3 ixtisasa uyğun olmalıdır. Bunun üçün, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2011-ci il tarixli, 95 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) təsnifatı”nda öz ixtisas qrupunuza uyğun olan ixtisası seçə bilərsiniz.

**21. Mən DİM imtahanında 290 bal toplamışam, Çin təqaüd proqramına müraciət edə bilərəm?**

- Xeyr. Bakalavriat səviyyəsində təhsil almaq istəyən şəxslər ölkənin ali təhsil müəssisələrinin bakalavriata tələbə qəbulu üzrə aparılan test imtahanları çərçivəsində texniki sahələr üzrə ən azı 350, digər sahələr üzrə ən azı 450 bal toplamalıdırlar.

**Qeyd:** Bakalavriat təhsil səviyyəsinə müraciət edən iddiaçılar Beynəlxalq təhsil proqramları üzrə (IB, A level, AP) təhsil alıblarsa və aşağıda müəyyən olunmuş

keçid ballarının minimum və maksimum hədləri aralığında göstəricilərini təsdiq edən arayışın surətini təqdim edə bilirlərsə, bu halda bu namizədlərdən DİM qəbul imtahanın nəticəsi  və SAT balı tələb olunmur:

- *Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme) – 25-35;*
- *Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education) – C və ya B (müvafiq üç imtahan fənni üzrə);*
- *Yüksək yerləşdirmə (Advanced Placement) – 3 və ya 4 (müvafiq üç imtahan fənni üzrə).*

**22. Tələbəyə hərbi xidmətdən möhlət hüququ verilirmi?**

- "Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikası Qanunu"nun 21.1.5-ci bəndinə əsasən, xarici ölkələrdə əyani təhsilalma formasında təhsil alanlara ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələrində,  tibb təhsili üçün ali baza tibb təhsili və rezidenturada (internaturada) təhsil alanlara müvafiq təhsilini bitirənədək çağırışa möhlət verilir.
  Lakin eyni təhsil səviyyəsi üzrə ikinci dəfə müraciət edən şəxslər hərbi bilet və ya hərbi xidmətdən möhlət hüququnu əks etdirən sənədi təqdim etməlidirlər.

**23. Mən bundan öncəki təhsilimi xaricdə almışam, diplomun nostrifikasiyasına dair sənəd təqdim etməliyəm?**

- Bəli, öncəki ali təhsil haqqında sənəd Azərbaycan Respublikası ərazisində kvalifikasiyaların tanınması prosesindən keçməlidir. Müvafiq sənədi əldə etməmisinizsə, ətraflı məlumatı aşağıdakı keçiddən əldə edə bilərsiniz: https://www.tkta.edu.az/p/recognition-of-qualifications
- Əgər diplomunuz hazırda TKTA-da tanınma prosesindədirsə, icra statusu barəsində elektron sistemdə şəxsi kabinetinizdən çıxarış ("screenshot") təqdim etməlisiniz.

**24. Mən dövlət hesabına bakalavriat/magistratura/doktorantura səviyyəsi üzrə təhsil almışam. Eyni təhsil səviyyəsi üzrə Çin təqaüd proqramına təkrar müraciət edə bilərəm?**

- "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü bəndinə əsasən "...dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir". Azərbaycan ali təhsil müəssisələrində yaxud xaricdə dövlət hesabına ("2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" və hökumətlərarası müqavilələr yolu ilə) təhsil almış şəxslər eyni təhsil səviyyəsi üzrə yenidən müraciət edə bilməzlər.

**25. Mən bir akademik ildə iki fərqli ölkənin təqaüd proqramına müraciət edə bilərəm?**

- Namizədlər, bir akademik ildə ilkin seçimi Elm və Təhsil Nazirliyi tərəfindən

aparılan yalnız bir ölkənin təqaüd proqramına müraciət edə bilərlər. Bu qayda yalnız müvafiq təqaüd proqramının müsahibə mərhələsinə buraxılmış şəxslərə şamil edilir.

**26. Çinə gediş-gəliş bileti Azərbaycan tərəfindən qarşılanırmı?**

- Bəli, qarşılanır. Lakin nəzərinizə çatdırırıq ki, aviabilet hər tədris ili üzrə yalnız tədris ilinin əvvəli (gediş) və tədris ilinin sonu (gəliş) olmaqla ildə bir dəfə verilir. Tələbələr digər vaxtlarda (məsələn, qış tətili zamanı) Azərbaycana qayıtmaq istəsələr, bunu şəxsi vəsait hesabına təmin etməlidirlər.